**Müşfiq Mahal oğlu Tükanov**

**UOT:336:336.02:336.71; JEL: E5:E44;G32.**

# Kənd təsərrüfatında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin nəzəri-metodoloji aspektləri

**Xülasə**

*Tədqiqatın məqsədi - kənd təsərrüfatında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin nəzəri-metodoloji aspektlərinin tədqiqidir. Bunun üçün maliyyə-kredit mexanizminin mahiyyəti açıqlanmış və onun təkmilləşdirilməsi üzrə konseptual yanaşmalar araşdırılmışdır. Kənd təsərrüfatında maliyyə-kredit mexanziminin səmərəliliyinin təmin olunması üzrə beynəlxalq təcrübədən yanaşmaqla, prioritet məsələlər baxılmışdır. Azərbaycanda mühüm iqtisadiyyat sahəsi olan kənd təsərrüfatında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi problemlərinə toxunulmuş və bununla bağlı mülahizələr verilmişdir. Tədqiqatın metodologiyası – kimi, ilk növbədə daha geniş yayılan iqtisadi metodlardan, o cümlədən analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmədən istifadə edilmişdir. Eyni zamanda, kənd təsərrüfatında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin nəzəri-metodoloji aspektlərinə dair müxtəlif alim və tədqiqatçıların əsərlərində yer almış müddəalar da diqqət mərkəzində saxlanılmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalədə verilmiş materiallardan ölkəmizdə kənd təsərrüfatının inkişafı üçün maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin görülməsində, praktiki fəaliyyət mexanizmlərin işlənməsində, eyni zamanda tədris vəsaitlərinin hazırlanmasında istifadə edilə bilər. Tədqiqatın nəticələri – hazırkı dövrdə kənd təsərrüfatında maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində daha işlək və səmərəli fəaliyyət mexanizmlərinin təşkili və maliyyə-kredit resurslarına əlçatanlığın təmin edilməsi üzrə təsirli tədbirlərin görülməsindən ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə verilmiş materiallar qoyulan problemlərə uyğun şəkildə aparılan tədqiqatın nəticəsində formalaşıb və buna görə də, onların orijinallığı təmin olunub. Əsas elmi yenilik isə, qlobal risklərin, o cümlədən maliyyə-kredit problemlərinin artdığı bir dövrdə kənd təsərrüfatında çoxfunksiyalı və səmərəli maliyyə-kredit mexanizminin işlənməsi və onun tərkib elementlərinin əsaslandırılaraq müəyyənləşdirilməsidir. Eyni zamanda, maliyyə-kredit resurslarına əlçatanlığın vacibliyi və kənd təsərrüfatında tətbiq olunan maliyyə mexanizmlərinin səmərəliliyinin artırılmasının prioritetliyi əsaslandırılmışdır.*

***Açar sözləri:*** *kənd təsərrüfatı, maliyyə, maliyyə-kredit, maliyyə-kredit mexanzimləri, kənd təsərrüfatının maliyyələşdirilməsi, kənd təsərrüfatının kreditləşdirilməsi, kənd təsərrüfatının maliyyə problemləri.*

## Giriş

Maliyyə-kredit mexanizmi cəmiyyətin iqtisadi və sosial inkişafına təsir üsul və formalarının, alətlərinin və vasitələrinin məcmusudur. Maliyyə-kredit mexanizmi - dövlət tərəfindən müəyyən edilmiş maliyyə-kredit münasibətlərinin təşkili formaları, növləri və üsulları sistemidir. Maliyyə-kredit mexanizmi maliyyə alətlərinin, stimullaşdırıcı vasitələrin, metodların və iqtisadi fəaliyyət proseslərinin tənzimlənməsi yollarının məcmusudur. Belə alətlərə aşağıdakılar daxildir: vergilər, qiymətlər, tariflər, güzəştlər, subsidiyalar, bank kreditləri və depozitlər üzrə faizlər, uçot dərəcəsi, rüsumlar və s [1, s.105]. Maliyyə-kredit üsulları iqtisadi siyasətin qarşıya qoyulmuş vəzifələrinin əməli şəkildə yerinə yetirilməsinə yönəlmiş spesifik fəaliyyət üsullarıdır. Maliyyə-kredit formaları maliyyə-kredit sferasının

*©Müşfiq Mahal oğlu Tükanov Azərbaycan Respublikası Kənd Təsərrüfat Nazirliyi, Aqrar Tədqiqatlar Mərkəzi, dissertant.*
*E-mail: mushvig.tukanov@bk.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

kateqoriyalarının konkret təzahürləridir. Təbii ki, ölkənin iqtisadi vəziyyəti bütövlükdə region iqtisadiyyatının inkişafını, o cümlədən regionun inkişafının maliyyə-kredit sahəsini müəyyən edir. Maliyyə-kredit mexanizminin işinin keyfiyyətinin qiymətləndirilməsi onun cəmiyyətin müasir maraqlarına uyğunluğuna, qarşıya qoyduğu məqsədə çatmaq və konkret problemləri həll etmək qabiliyyətinə uyğun olaraq baş verir. Həmçinin, fəaliyyət mexanizmi cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarının və dövlətin mövcud obyektiv imkanlarının əlaqələndirilməsi və reallaşdırılması vasitəsi olmalıdır [2, s.96].

**Maliyyə-kredit mexanizminin əsasları**

Müasir dövrdə maliyyə-kredit mexanizminin nəzəri-metodoloji əsaslarına dair çoxlu sayda elmi tədqiqatlara rast gəlmək mümkündür. Qeyd etmək lazımdır ki, maliyyə-kredit mexanizminin tərifləri elmi ədəbiyyatda açıqlanır. Müxtəlif müəlliflər bunu maliyyə və kredit resurslarından istifadənin müxtəlif forma və üsullarının məcmusu kimi nəzərdən keçirir. İqtisadi ədəbiyyatda “maliyyə-kredit mexanizmi” anlayışından kifayət qədər geniş istifadə olunur. Amma iqtisadi mahiyyət, məzmun və onun tərkib hissələrinə dair vahid konsensus yoxdur. Bir sıra tədqiqatçılar hesab edirlər ki, maliyyə-kredit mexanizmi cəmiyyətdəki iqtisadi proseslərə təsir elementləri və vasitələrindən ibarət olan maliyyə münasibətlərinin təşkili üsuludur. Digər bir qrup iqtisadçılar maliyyə-kredit mexanizmini ayrı-ayrı alt sistemlərin aydın strukturu hesab edirlər, o cümlədən: maliyyə və kredit planlaması; maliyyə və kredit vasitələri və maliyyə-kredit sisteminin hüquqi əsasları. Başqa bir qrupu isə hesab edir ki, maliyyə-kredit mexanizmi iki alt sistemdən ibarətdir: - maliyyə və kredit dəstəyi; - maliyyə-kredit tənzimlənməsi [3, s.54]. Bir sıra iqtisadi ədəbiyyatlarda maliyyə-kredit mexanizminin hər bir tərəfi ayrı-ayrılıqda nəzərdən keçirilir. Kredit mexanizmi təsərrüfat mexanizminin tərkib hissəsi kimi səciyyələndirilir. Onun əsas elementlərinə kreditləşmə, kreditin planlaşdırılması, kreditin idarə edilməsi prinsipləri və digərləri daxil edilir. İqtisadi qanunların fəaliyyəti, dövlətin iqtisadi siyasəti, genişləndirilmiş təkrar istehsalın məqsədləri, xalq təsərrüfatının səmərəliliyinin artırılması vəzifələri ilə müəyyən edilir. Kredit mexanizminin köməyi ilə kredit siyasəti həyata keçirilir. Kredit mexanizmi maliyyə, qiymətqoyma və təsərrüfat mexanizminin digər hissələri ilə qarşılıqlı əlaqədədir. Maliyyə mexanizmi - təsərrüfat mexanizminin tərkib hissəsi, bölgü və yenidən bölüşdürmə münasibətlərinin geniş sisteminin həyata keçirilməsini, gəlirlərin və əmanətlərin formalaşmasını, pul vəsaitlərinin mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş fondlarının yaradılmasını və istifadəsini təmin edən forma və üsulların məcmusudur. Maliyyə-kredit mexanizmi iqtisadiyyatın bütün sahələrinin, o cümlədən kənd təsərrüfatının əsas iqtisadi mexanizmlərindən biridir. Ölkənin ərzaq təhlükəsizliyi və əhalinin sosial təminatı milli iqtisadiyyatın prioritet sahələrinin fəaliyyət səviyyəsi ilə müəyyən edilir ki, bunlardan biri də kənd təsərrüfatıdır. Kənd təsərrüfatının əsas məqsədi ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, emal sənayesinin xamalla olan tələbatının ödənilməsi və digərləridir. Kənd təsərrüfatı bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərə istehsalın həyata keçirilməsinin torpaq və iqlimdən asılı olması, istehsalın mövsumi xarakterli olması, kənd təsərrüfatının bir sıra sahələrində, o cümlədən bitkiçilik və heyvandarlıqda bioloji amillərdən istifadə olunması, təbii-iqlim şəraitinin müxtəlifliyə malik olması, torpaq resurslarından istifadə zamanı regional fərqlərin olması, təkrar istehsal fondlarının əsasən öz məhsulları hesabına yaradılması və digərləri daxildir [4, s.19]. Kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətləri onun iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha az əlverişli mövqeyini müəyyənləşdirir: riskli istehsal, aşağı investisiya cəlbediciliyi, yavaş və natamam kapital dövriyyəsi, investisiya layihələrinin uzunmüddətli həyata keçirilməsi. Kənd təsərrüfatına xas olan xüsusiyyətlər bu sahədə maliyyə-kredit mexanizminin təşkili xüsusiyyətlərinə təsir göstərir. Kənd təsərrüfatı



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xüsusilə, açıq mövsümilik və istehsal dövrünün əhəmiyyətli müddəti ilə xarakterizə olunur. Bu sektorun müəssisələri milli iqtisadiyyatın digər sahələrinin müəssisələri kimi öz xərclərini gəlirlə ödəyir. Bununla belə, il ərzində onların fəaliyyəti üçün bank krediti tələb olunur. Burada bank kreditləşdirilməsi iqtisadiyyatın digər sahələrinə nisbətən daha böyük əhəmiyyət kəsb edir. Gəlir alınmazdan əvvəl kənd təsərrüfatı müəssisələrinin xərclərinin əsas hissəsi kredit hesabına formalaşır. Nəzərə alsaq ki, kənd təsərrüfatı istehsalında istehsal tsikli bir neçə ay (bitkiçilikdə - 9-12-yə qədər) davam edir, fəaliyyətin maliyyə nəticələri yalnız ilin sonunda müəyyən edilir. Müvafiq olaraq ilin yekunlarına görə mənfəətin bölüşdürülməsi, eləcə də iqtisadi həvəsləndirmə fondlarının formalaşdırılması həyata keçirilir. Kənd təsərrüfatında istehsal dövrünün uzunluğuna görə davamlı maliyyələşdirmə mənbələri yoxdur. Eyni zamanda, kənd təsərrüfatı istehsalçılarının əvvəlki dövrədə əldə etdikləri öz gəlirləri hesabına növbəti istehsal dövrünü maliyyələşdirmək imkanları məhduddur. İstehsal dövrünün uzunluğu ilə yanaşı, kənd təsərrüfatı istehsalçısının gəlirlərinin proqnozlaşdırılmasının çətinliyi səbəbindən maliyyə vəsaitlərinin cəlb edilməsi də çətindir. Bu hal gəlirin gözlənilməz hava şəraitindən asılı olması ilə bağlıdır. Bu xüsusiyyətlər kənd təsərrüfatı istehsalının daimi maliyyələşdirilməsinə, onun dəstəklənməsi üçün kreditlərin verilməsinə şərait yaradılmasını təmin edən maliyyə-kredit mexaniminin təkmilləşdirilməsinin vacibliyini müəyyən edir.

**Kənd təsərrüfatında maliyyə-kredit mexanizminin təkmilləşdiirlməsi**

Ayrı-ayrı kənd təsərrüfatı müəssisələrinin maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi aqrar-sənaye kompleksinin inkişafına maliyyə dəstəyi tədbirlərinin həyata keçirilməsini, kənd təsərrüfatı istehsalının və ərzaq məhsullarının artım tempinin yüksəldilməsinə şərait yaradılmasını, ölkənin ərzaq məhsulları ilə təmin olunmasını, kənd təsərrüfatı istehsalçılarının gəlirliliyinin və ödəmə qabiliyyətinin artırılmasını, kənd əhalisinin məşğulluğunun artırılması və onun həyat səviyyəsinin yüksəldilməsini nəzərdə tutur. Kənd təsərrüfatı sektorunun iqtisadi mexanizminin təkmilləşdirilməsinin ən mühüm problemlərindən biri onun yeni idarəetmə formalarına, mövcud iqtisadi vəziyyətə uyğunlaşdırılmasıdır. İqtisadi mexanizmin bir hissəsi maliyyə-kredit mexanizmidir ki, onun fəaliyyəti ümumi milli məhsulun bölüşdürülməsi və yenidən bölüşdürülməsi ilə bağlı iqtisadi münasibətlərin çox mühüm sahəsini əhatə edir. Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi onun məqsəd və vəzifələrinin, prinsiplərinin, funksiyalarının, səviyyələrinin formalaşması, bölüşdürülməsi və yenidən bölüşdürülməsi prosesində iştirak edən subyektlərin maraqlarının uyğunluğu və qarşılıqlı əlaqəsində özünü göstərir. Kənd təsərrüfatında inteqrasiya olunmuş birləşmələrin üstünlükləri əlavə kapitalın cəlb edilməsi imkanlarının genişləndirilməsində, sərbəst pul vəsaitləri və ehtiyatların manevr edilməsində, birləşmiş müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşdırılmasında (maliyyənin bərpasında), əməliyyat xərclərinin azaldılmasında, vergilərə qənaət, texniki və texnoloji modernləşmənin həyata keçirilməsi üçün investorların cəlb edilməsində özünü göstərir. İnteqrasiya edilmiş birləşmələrin maliyyə-kredit mexanizmində prioritet rolu bank kreditləşməsi, o cümlədən kənd təsərrüfatı təsərrüfatları ilə kredit münasibətləri, müştərilərin avans ödənişləri, təchizatçılara kreditor borclarının verilməsi kimi elementlər oynayır. Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin inkişafında əsas bloklardan (maliyyə və kredit) əlavə, maliyyələşdirmə və kreditləşdirmə altsistemləri arasında aralıq birləşdirici mövqe tutan inteqrasiya bloku da formalaşır. Blokların hər biri özünəməxsus funksiyaları yerinə yetirir və məqsədli funksiyanın həyata keçirilməsində - kənd təsərrüfatı müəssisələrini və onlarla əlaqəli digər sahələri maliyyə və kredit resursları ilə təmin etməkdə iştirak edir. Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin formalaşdırılması bir sıra prinsiplərə əsaslanır: çeviklik, ardıcıllıq, koordinasiya, əks əlaqə, səmərəlilik, prioritet maliyyələşdirmə, əlçatanlıq, təminat,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

bərabərlik və s. Bu prinsiplərə uyğunluğun əhəmiyyəti və mürəkkəbliyi onun elementlərinin inkişafının hər bir mərhələsində (formalaşma, fəaliyyət göstərmə, təkmilləşdirmə) artır.

**Şəkil 1.**

**Kənd təsərrüfatının maliyyə-kredit mexanizmləri**




Mənbə: şəkil müəllif tərəfindən tərtib edilib.



Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin formalaşması prinsipləri bir-biri ilə bağlıdır, bir-birinə tabedir, ardıcıllıq prinsipinin üstünlüyü ilə müəyyən iyerarxiya təşkil edir. Prinsiplərin vəhdəti və onların istiqaməti maliyyə-kredit mexanizminin formalaşması və inkişafı prosesinin bütövlüyünü müəyyən edir. Aqrar-sənaye kompleksinin maliyyə-kredit mexanizminin tərkib elementlərinin inkişafının əsasını ardıcıllıq prinsipi təşkil edir. Maliyyə-kredit mexanizminin elementlərinin inkişafının bütün mərhələlərində ardıcıllıq prinsipinin dominant rolu nəzərə alınır ki, bu da onun öyrənilməsinə metodoloji yanaşmaları dərinləşdirir: Çeviklik prinsipi kənd təsərrüfatının maliyyə-kredit sisteminin subyektlərinin subyektiv və iqtisadi amillərin təsiri ilə iqtisadiyyatın sektoruna xas olan daxili və xarici mühitin dəyişən şərtlərinə vaxtında uyğunlaşdırılmasını nəzərdə tutur. Koordinasiya prinsipi kənd təsərrüfatının maliyyə-kredit sisteminin bütün subyektlərinin hərəkətlərinin və maraqlarının əlaqələndirilməsindən ibarətdir; Səmərəlilik prinsipi - kənd təsərrüfatının maliyyə-kredit sisteminin elementlərinin, aqrar sektorun iqtisadiyyatının inkişafı və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi siyasətinin həyata keçirilməsinə töhfə verməkdən ibarətdir. Həmçinin, ən az və ya müəyyən miqdarda vəsaitdən istifadə etməklə kənd təsərrüfatının inkişafı üçün qarşıya qoyulmuş ən yaxşı nəticələrə nail olmaqdan ibarətdir; Təminat prinsipi - kənd təsərrüfatının dəstəklənməsi və inkişafı üçün qəbul edilmiş proqramların vaxtında və tam maliyyələşdirilməsi və onların həyata keçirilməsi üzrə öhdəliklərin yerinə yetirilməsi üçün milli və regional hakimiyyət orqanlarının məsuliyyətinin müəyyən edilməsini nəzərdə tutur; Əks əlaqə prinsipi maliyyə-kredit mexanizminin formalaşmasının faktiki nəticələrinin onun əsas məqsədlərinə uyğunluğu barədə məlumat verməyə və daha səmərəli nəzarət və monitorinqin aparılmasına imkan verir ki, bu da onun inkişafına zəmin yaradır. Bu zaman əsas vəzifə kənarlaşmaların dərəcəsini, istiqamətini və səbəblərini düzgün qiymətləndirməkdir; Bərabərlik (əlçatanlıq) prinsipi - təşkilati-hüquqi mülkiyyət formasından asılı olmayaraq kənd təsərrüfatı istehsalçılarının dövlətdən maliyyə dəstəyi almaq imkanını nəzərdə tutur; Prioritet maliyyələşdirmə prinsipi - büdcə vəsaitlərinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

aqrar iqtisadiyyatın prioritet vəzifələrinin həllinə və kənd təsərrüfatı üçün strateji əhəmiyyət kəsb edən sahələrin inkişafına yönəldilməsini təmin edir. Çünki onlar bu sahədə innovativ fəaliyyətin - elit toxumun inkişafını müəyyən edir [5, s.51].

**Şəkil 2.**

**Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin tərkib elementləri**




Mənbə: şəkil müəllif tərəfindən tərtib edilib

Kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin səmərəlilik göstəricilərinin yaxşılaşdırılması çərçivəsində möhkəm maliyyə-kredit mexanizminin formalaşdırılması zəruridir. Struktur olaraq bu mexanizm müəyyən bloklar şəklində təşkil oluna bilər: tənzimləyici; məlumat; iqtisadi və texniki. Maliyyə-kredit mexanizmi biznesin səmərəli aparılması üçün müəssisənin maliyyə resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsinə daim təsir göstərir. Kənd təsərrüfatı müəssisələri təbii-iqlim şəraitindən asılılıq, bir çox hallarda investisiya resurslarının çatışmazlığı, özünümaliyyələşdirmənin olmaması, itkiləri kompensasiya edə bilməməsi və s. kimi problemlərlə üzləşirlər. Uzun müddət ərzində sənayenin təşkilati-iqtisadi mexanizminin məhz bu elementi əsas rol oynamış və həm kiçik, həm də iri aqrobiznesin fəaliyyət göstərməsinə şərait yaratmışdır [7, s.149]. Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın aqrar sektorunda iqtisadi mexanizm vasitəsilə tənzimləmənin effektiv alətlərindən biri maliyyə resurslarını toplamağa qadir olan maliyyə-kredit sisteminin institutlarıdır. Təcrübədə kredit resurslarının investisiya mənbələrindən birinə çevrilməsini təmin etmək üçün maliyyə institutlarına kifayət qədər vəsaitin cəlb edilməsi mexanizminin yaradılması vacibdir [8]. Nəzərə almaq lazımdır ki, yeni kənd təsərrüfatı texnologiyalarının yüksək qiyməti və unikallığı bu sektorun maliyyə-kredit mexanizminin inkişafı üçün innovativ vektoru müəyyən edir, maliyyə və kredit resurslarını birləşdirən institutlar vasitəsilə innovasiyalara resurs dəstəyi göstərən aqrolizinq, kiçik biznesə, innovasiya və nanotexnologiyaya dəstək fondları, vençur fondları kimi struktur elementlərinin yaradılmasına imkan verir.

Dövlətin makroiqtisadi proseslərə təsir etdiyi maliyyə-kredit alətləri arasında ən çox yayılanı bank kreditləşdirilməsidir. Bank kreditləşməsinin səmərəli mexanizmindən istifadə etməklə kənd təsərrüfatı istehsalının stimullaşdırılması zəruri və səmərəli maliyyə dəstəyi mənbəyi kimi kredit resurslarının xüsusi çəkisinin artırılmasına kömək edəcəkdir. Kənd təsərrüfatında dövlət maliyyə-kredit dəstəyinin əsas aləti aqrobiznes müəssisələri üçün kreditlərin əlçatanlığının artırılmasıdır. Lizinq uzun müddətdir ki, kənd təsərrüfatı sahəsində



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

əlavə maliyyə dəstəyi aləti kimi çıxış edir. Azərbaycanda aqrolizinq kənd təsərrüfatı əmtəə istehsalçılarının istifadə olunan avadanlığın təkmilləşdirilməsi və modifikasiyası ilə bağlı maliyyə çətinliklərinin aradan qaldırılması məqsədi daşıyır. Lizinq xidmətləri göstərən təşkilatlar ölkənin aqrar-sənaye kompleksinin təkmilləşdirilməsi üçün müəyyən bir qurum təşkil edir. Məqsədi istehsalın modernləşdirilməsi və elmi-texniki tərəqqinin stimullaşdırılmasıdır. Dövlət dəstəyinin əsas istiqamətləri kreditlər üzrə faizlərin bir hissəsinin ödənilməsinə, damazlıq, ətlik və südlük maldarlığın dəstəklənməsi və digər məqsədlər üçün subsidiyalardır. Lakin kənd təsərrüfatı istehsalçıları daim dövlət subsidiyaları hesabına öz fəaliyyətlərini həyata keçirə bilmirlər. Ona görə də faktorinq strukturları öz fəaliyyətlərinin davamlı inkişafı üçün şərait yaratmalıdırlar. Fermer təsərrüfatlarının fəaliyyətində mühüm cəhət büdcə subsidiyalarından istifadə etməklə güzəştli kreditlərin verilməsi olub ki, bunun sayəsində həmin subyektlər həm öz vəsaitlərini maliyyələşdirmək üçün bank kreditlərinə çıxış əldə edə, həm də uzunmüddətli kreditlər hesabına potensiallarını əhəmiyyətli dərəcədə təkmilləşdirə və müasirləşdirə bilirlər.

Məhsulun hava şəraitindən asılılığı kənd təsərrüfatında ən mühüm risk faktorlarından biridir. Quraqlıq, sel, dolu bitkiçilik və bağçılıqla məşğul olan kənd təsərrüfatı istehsalçılarına ciddi ziyan vura bilər. İtkilərin ümumi məbləği arta bilər [9, s.16]. Bu risk faktoru istər-istəməz potensial mənfəətin azalmasına, infrastrukturun bərpasına yönəlmiş işlərə ayrılan büdcə ayırmalarının dəyərinin artmasına gətirib çıxarır. Bu baxımdan aqrar sığorta əhəmiyyətlidir. Müasir şəraitdə sığorta sistemi kənd təsərrüfatı istehsalçılarının risklərinin səmərəli şəkildə idarə olunmasında mühüm rol oynayır. Sığorta bazarının diversifikasiyası üçün müxtəlif sığorta sxemlərindən istifadə olunur. İnkişaf etmiş bir çox dünya ölkələrində kənd təsərrüfatı məhsullarının və gəlirlərinin sığortası çox geniş yayılmışdır ki, bunlar da elmi ədəbiyyatlarda ətraflı ətraflı şəkildə tədqiq edilmişdir. Sığorta qədim tarixi köklərə malikdir və risklərin səmərəli idarə edilməsi mexanizmi kimi çıxış edir [10, s.21]. Kənd təsərrüfatı risklərinin sığortası sahəsində aparılan islahatlar bu sahədə maliyyə-kredit mexanizminin modernləşdirilməsində mühüm həlqədir. Onun gələcək inkişafı üçün müvafiq risklərin sığortalanmasının mövcud sistemini təkmilləşdirmək, daha çox kənd təsərrüfatı istehsalçılarını cəlb etmək, bununla da onların maliyyə sabitliyini qorumaq lazımdır. Eyni zamanda qeyd etmək lazımdır ki, dövlətin iştirakı olmadan səmərəli kənd təsərrüfatı risklərinin sığortası sisteminin qurulması mümkün deyil. Fikrimizcə, kənd təsərrüfatı sığortasını inkişaf etdirmək üçün aşağıdakılar lazımdır:

- təbii fəlakətlərdən daha çox zərər çəkmiş rayonların iqtisadiyyatlarına dəymiş ziyanın tam ödənilməsini və sığortaya ayrılan maliyyə vəsaitlərinin daha dolğun səfərbər edilməsini təmin etmək üçün sığorta ehtiyat fondunun yaradılması;
- ümumdövlət təkrarsığorta sisteminin yaradılması və təkmilləşdirilməsi;
- kənd təsərrüfatında risk sığortasının dövlət tərəfindən subsidiyalaşdırılması mexanizminin təkmilləşdirilməsi.

Kənd təsərrüfatı sığortası mexanizminin müasirləşdirilməsinin əsas vəzifəsi onu riskləri azaldan və kənd təsərrüfatı istehsalçılarının dayanıqlığını artıran geniş yayılmış və effektiv alətə çevrilməsidir. Yalnız çoxtərəfli dövlət dəstəyi kənd təsərrüfatı sığortasının inkişafı üçün səmərəli təkan ola bilər [11, s.181]. Ümumiyyətlə, kənd təsərrüfatı müəssisələrinin maliyyə-kredit mexanizminin xüsusiyyətləri onun demək olar ki, bütün elementlərində özünü göstərir: maliyyələşdirmə və kreditləşdirmə üsulları sistemində, maliyyə resurslarının idarə edilməsi üsullarında, onlardan istifadə istiqamətlərində, maliyyə vasitələrinin, alətlərinin, tənzimləyicilərinin məcmusunda.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

Nəticə olaraq deyə bilərik ki, kənd təsərrüfatının maliyyə-kredit mexanizminin inkişafı maliyyə resurslarının çatışmazlığı problemlərinin aradan qaldırılması üçün kompleks sistemli yanaşmanın tətbiqini tələb edir. Bu, resurs bazasının genişləndirilməsi, kredit risklərinin azaldılması, kreditləşmənin sərhədlərinin genişləndirilməsi yolu ilə onun əlçatan növlərinin formalaşmasında özünü göstərir: bu mərhələdə dövlətin vəzifəsi kənd təsərrüfatının maliyyə-kredit mexanizminin inkişafı üçün institusional şərait yaratmaqdır; ona görə də kənd təsərrqfatı istehsalında baş verən prosesləri dərk etmək və idarəetmə və dövlət tənzimlənməsi anlayışlarının kökündən dəyişdirilməsinə, maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinə ehtiyac var; kənd təsərrüfatı istehsalının böhrandan çıxması və onun iqtisadi səmərəliliyinin yüksəldilməsi yalnız elmi nailiyyətlərin geniş tətbiqi, qabaqcıl təcrübənin tətbiqi və bazar mexanizmi sistemi vasitəsilə çevik dövlət tənzimlənməsi əsasında, bütün imkanlardan istifadə etməklə mümkündür.

**Ədəbiyyat**


1. Зарук, Н.Ф. Роль финансово-кредитного механизма в условиях импортозамещения // Нива Поволжья, февраль 2015, № 1 (34), с.105-113.
2. Шаталов, М.А., Мычка, С.Ю. Финансово-кредитные инструменты роста национальной экономики / Современные инновационные технологии и проблемы устойчивого развития общества: материалы X международной научно-практической конференции. Минск: ООО «Ковчег», 2017. – С. 95-97.
3. Юзвович, Л.И.. Финансово-кредитный механизм привлечения реальных инвестиций. Финансы и кредит, 2012, 32 (512), с.53-59.
4. Quliyev, E.A. Aqrar iqtisadiyyat. Bakı: Kooperasiya nəşriyyatı, 2015, 320 s.
5. Шкарупа, Е.А. Теоретико-методологические подходы к формированию и развитию финансово-кредитной инфраструктуры АПК // Региональная экономика: теория и практика, 2012, 24 (255), с.48-51.
6. Булацева, Ф.А. Финансово-кредитный механизм обеспечения устойчивого развития АПК // Известия Горского государственного аграрного университета. – 2012. – Т. 49. – № 3. – С. 358-360.
7. Надеждина, С.Д., Сандаков, А.А. Факторинг как форма рефинансирования дебиторской задолженности сельхозтоваропроизводителей // Вестник Алтайского государственного аграрного университета. – 2015. – № 7 (129). – С. 148-153.
8. Абдиев, М.Ж., Ташибеков, Т.Ч., Мамытов, Б.М. Вопросы регулирования финансово-кредитного механизма аграрного производства // Экономика и бизнес: теория и практика. – 2017. – № 6. – С. 5-7.
9. Александрин, Ю.Н., Грибушенкова, В.А. Агрострахование как эффективный инструмент повышения финансовой устойчивости предприятий АПК // Экономика устойчивого развития. – 2016. – № 1 (25). – С. 15-24.
10. Cəfərov, İ.H., Hüseynov, M.C., Salahov, E.A. Kənd təsərrüfatında indeksli sığortanın nəzəri aspektləri və Azərbaycanda tətbiqi perspektivləri // Kənd təsərrüfatının iqtisadiyyatı, 2021, № 2 (36), s.21-34.
11. Семенова, Н.Н. Финансово-кредитный механизм импортозамещения в агропромышленном комплексе // Ежегодник, 2017, ч 1, вып. 12, с.177-183.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Мушфиг Махал оглы Туканов***

***Теоретико-методологические аспекты совершенствования финансово-кредитного механизма в сельском хозяйстве***

***Резюме***

*Цель исследования – является изучение и обобщение теоретико-методологических аспектов совершенствования финансово-кредитного механизма в сельском хозяйстве. С этой целью исследована сущность финансово-кредитных механизмов и рассмотрены концептуальные подходы по их совершенствованию. Отмечена важность мирового опыта по обеспечению эффективности финансово-кредитных механизмов в сельском хозяйстве. Обращено внимание на актуальные проблемы и вопросы повышения эффективности и совершенствования финансово-кредитных механизмов в сельском хозяйстве Азербайджана. Методология исследования – состоит из ряда экономических методов, в том числе анализа, синтеза, сравнения и обобщения. Одновременно рассмотрены методологические подходы и труды ряда исследователей по проблемам совершенствования финансово-кредитных механизмов в сельском хозяйстве. Практическая значимость исследования – полученные основные выводы и результаты исследования могут быть использованы в подготовке комплексных мероприятий и разработке целевых механизмов по совершенствованию финансово-кредитной основы развития сельского хозяйства. Результаты исследования – отражены в подготовленных механизмах и составных элементах финансово-кредитных основ развития одной из важнейших сфер экономики – сельского хозяйства в нынешних сложных ситуациях. Оригинальность и научная новизна исследования - в первую очередь материалы исследования изложены на основе последовательных и системных подходов и потому в основном рассматриваются оригинальными. Далее, научная новизна состоит в том, что в современных глобальных ситуациях сформированы и обоснованы концептуальные подходы и определены приоритетные направления развития, в том числе совершенствование финансово-кредитных механизмов сельского хозяйства.*

***Ключевые слова:*** *сельское хозяйство, финансы, финансовый кредит, финансово-кредитные механизмы, финансирование сельского хозяйства, кредитование сельского хозяйства, финансовое управление сельского хозяйства.*

***Mushfig Mahal Tukanov***

***Theoretical and methodological aspects of improving the financial and credit mechanism in agriculture***

***Summary***

*Purpose of the Study- is to study the theoretical and methodological aspects of improving the financial and credit mechanism in agriculture. Therefore, in the study the essence of the financial-credit mechanism was clarified and conceptual approaches to its improvement were studied. Priority issues were also reviewed, based on international experience in ensuring the effectiveness of the financial and credit mechanism in agriculture. The problems of improving the financial and credit mechanism in agriculture, which is an important sector of the economy in Azerbaijan, were considered and comments were made in this regard. Research Methodology- more common economic methods were used, including analysis, synthesis, comparative analysis, and generalization. Simultaneously, the theses of various scientists and researchers on the theoretical and methodological aspects of improving the financial and credit mechanism in agriculture were considered. Practical Application of*



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*the Research- The materials presented in the article can be used to improve the financial and credit mechanism for the development of agriculture in our country, to develop mechanisms for practical activities, as well as to develop teaching resources. Research results- include the organization of more efficient and effective mechanisms for improving the financial and credit mechanisms in agriculture and taking effective measures to ensure access to financial and credit resources. Originality and scientific novelty of the research - The materials presented in the article were formed based on the research that conducted in accordance with the problems posed, and therefore their originality was ensured. The main scientific novelty is the development of a multifunctional and efficient financial and credit mechanism in agriculture in the course of increasing global risks, including financial and credit problems, and the justification of its components. The article also substantiates the importance of access to financial and credit resources and the priority of increasing the efficiency of financial mechanisms applied in agriculture.*

***Keywords:*** *agriculture, finance, finance-credit, financial-credit mechanisms, financing of agriculture, crediting of agriculture, financial problems of agriculture.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 22.02. 2022.***
***Çapa qəbul olunub: 01.03.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*